**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A. BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AKİF ƏLAVƏDDİN OĞLU MƏMMƏDLİ**

# AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNİN TARİXİ ABİDƏLƏRİ (TƏSVİRİ VƏ TƏSNİFATI)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI — 2016**

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın qədim tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**

*Əməkdar Elm Xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*Dövlət Mükafatı laureatı* **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**

*Tarix üzrə elmlər doktoru* **N.A.Əliyeva**

*Tarix üzrə elmlər doktoru, dosent* **Ş.H.Əliyev**

**Aparıcı müəssisə:** **Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01– "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_17__"__02___ 2016-cı il tarixli iclasında saat ____ -da keçiriləcəkdir.

**Ünvan:** 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

**Avtoreferat** "___"______________ 2016-cı il tarixində göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi:
tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı.*** Müasir Azərbaycan milli tarixşünaslıq elmi qarşısında duran ən aktual problemlərdən biri ölkə ərazisində tarixin müxtəlif mərhələlərində yaradılmış abidələrin tədqiqi, təsviri və təsnifatı məsələlərinin elmi həllinə nail olmaqdır. Bu problem bu gün mühüm elmi və siyasi əhəmiyyət kəsb edir. Azərbaycan yerləşdiyi coğrafi, strateji mövqeyinə və təbii ehtiyatlarının zənginliyinə görə tarix boyu böyük dövlətlərin diqqət mərkəzində olmuş, bu baxımdan Azərbaycanın şimal-qərb bölgəsi isə xüsusi əhəmiyyət kəsb etmiş, bu ərazidəki çox saylı qədim abidələr müəyyən mübahisələr obyektinə çevrilmişdir. Bu mübahisələrin başlıca səbəblərindən biri bölgədəki qədim tarixi abidələrin, xüsusilə də məbədlərin tarixşünaslığımızda lazımınca araşdırılmaması və elmi ədəbiyyatda öz əksini tapmamasıdır.

Azərbaycan Albaniyası tarixinin və mədəniyyətinin ən dəyərli yadigarları olan bu tarixi abidələr xalqın əsrlər boyu təşəkkül tapmış böyük sərvətin bir qismidir. Məhz buna görə də ermənilər və onların havadarları ilk növbədə həmin abidələrin gerçək tarixini saxtalaşdırmağa, bu mümkün olmadıqda isə onları məhv etməyə çalışmışlar. Ona görə də bölgədəki tarixi abidələrin bir qismi tamamilə məhv edilmiş, salamat qalmış hissəsinin üzərindəki Alban elementləri aradan qaldırılmış, həmin ünsürlər yad elementlərlə əvəz olunmuşdur. Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin qədim tarixi abidələrinin bir qismi müxtəlif dövrlərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən müəyyən qədər araşdırılmışdır, lakin bu abidələr indiyədək kompleks şəkildə öyrənilməmişdir.

Şimali Azərbaycanın, eləcə də Cənubi Qafqazın tarixində çox əhəmiyyətli rol oynamış bu tarixi abidələr astral inamlarla və xristianlıqla bağlı olan məbədlərdən, islam dövrü abidələrindən (məscid, minarə, pir və mədrəsələr) və müdafiə tikililərindən ibarətdir. Qafqazda ilk xristian məbədi olan Kiş məbədi daha məşhurdur. Ona görə də həm Azərbaycan, həm də xarici mütəxəssislərin diqqətini cəlb etmiş, ətraflı surətdə araşdırılmışdır. Lakin Ləkit, Qum, Mamrux, Darvaz, Katex, Nur kilsə məbədləri və digər abidələr hələlik geniş elmi ictimaiyyətə bəlli deyildir və elmi cəhətdən tədqiq olunmamışdır.

Ümumiyyətlə, 1803-1830-cu illər ərzində Rusiya qoşunları Azərbaycanın şimal-qərb bölgəsinə yeddi dəfə yürüş etdilər. Nəhayət, 1830-cu ildə rus qoşunlarının növbəti yürüşü nəticəsində Car-Balakən camaatlığı ləğv edildi və burada eyni adlı vilayət yaradıldı. Bu isə daha böyük üsyana səbəb oldu.

Vətən tarixinin qədim və orta əsrlər dövrü tarixini dərindən və hərtərəfli araşdırmaq, həmin dövrün iqtisadi, ictimai-siyasi və sosial siyasi münasibətlərini öyrənmək üçün tarixi abidələri tədqiq etmək, onların təyinatını müəyyənləşdirmək, təsnifatını vermək labüd və zəruridir.

Təbiidir ki, Azərbaycan Respublikasının çox əlverişli təbii-coğrafi məkanında olan, bir tərəfdən Gürcüstanla, digər tərəfdən də Rusiya Federasiyasının Dağıstan Respublikası ilə sərhəddə yerləşən şimal-qərb bölgəsinin tarixi abidələrinin öyrənilməsi elmi-nəzəri, siyasi baxımdan son dərəcədə aktualdır. Qeyd etməliyik ki, Azərbaycan milli tarix elmi üçün müstəsna əhəmiyyətə malik olan bu problem indiyədək xüsusi tədqiqat obyekti olmamışdır.

Azərbaycan tarixinə həsr edilmiş bir sıra əsərlərdə, xüsusilə Y.M.Mahmudovun rəhbərliyi ilə Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin həm tarixi-demoqrafik, həm də ictimai-iqtisadi cəhətdən öyrənilməsinə həsr olunmuş tədqiqat əsərlərində bölgədəki tarixi abidələrdən də müəyyən qədər bəhs edilmişdir. Lakin həmin əsərlərdə bu abidələrin geniş təsnifatı və təsviri verilməmişdir. Bu hal hər şeydən əvvəl onunla izah olunur ki, indiyədək aparılmış araşdırmalarda tədqiq etdiyimiz bölgənin tarixi abidələrinin öyrənilməsi əsas məqsəd kimi qarşıya qoyulmamışdır. Problemin araşdırılması məhz bu baxımdan xüsusilə aktualdır.

Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin tarixi abidələrinin öyrənilməsi zərurəti həm də onunla şərtlənir ki, bu araşdırma bölgədə baş vermiş tarixi proseslərin, ictimai-siyasi və dini dəyişikliklərin baş verməsi səbəblərini aydınlaşdırmağa imkan verə bilər.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də bölgədəki abidələrlə bağlı qonşu dövlətlərdə – Gürcüstanda, Ermənistanda və Dağıstanda bölgədəki abidələrlə bağlı həqiqətə uyğun olmayan çoxsaylı qeyri-obyektiv əsərlərin yazılması, Azərbaycan tarixinin saxtalaşdırılması cəhdləridir. Bölgənin Alban xristian abidələrinin tarixi və təyinatı daha çox

saxtalaşdırılmaya məruz qalmaqdadır. Həmin abidələr haqqında yazılmış qərəzli əsərlər isə obyektiv tarixin, Azərbaycan tarixinin saxtalaşdırılmasına xidmət edir.

Sadaladığımız amillər və faktlar Azərbaycan Respublikasının şimal-qərb bölgəsindəki abidələrin kompleks şəkildə tədqiq edilməsini son dərəcədə aktuallaşdırır.

***Tədqiqatın xronoloji çərçivəsi.*** Dissertasiyada araşdırmaya cəlb olunmuş abidələr eramızın ilk yüzilliklərindən başlayaraq, XIX yüzilliyin sonlarınadək olan böyük bir dövr ərzində inşa edilmişdir. Ona görə də tədqiqat işi göstərilən xronoloji çərçivəni əhatə edir.

Qeyd etmək vacibdir ki, Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin tarixi abidələrinin öyrənilməsi prosesində istifadə olunmuş əsas maddi və yazılı mənbələr və tarixi ədəbiyyat əsasən XIX yüzillikdən sonrakı dövrə aiddir.

***Mövzunun öyrənilmə səviyyəsi.*** Azərbaycanın Respublikasının şimal-qərb bölgəsi hələ antik Azərbaycan Albaniyası dövründən başlayaraq, XIX əsrin sonlarınadək Qafqazın tarixində müstəsna rol oynamışdır. Lakin bu bölgənin tarixi son dövrlərədək çox az araşdırılmışdır. Bölgənin öyrənilməsi son dövrdə müəyyən vüsət almış, lakin bir çox tarixi dövrlərin əsas şahidi olmuş tarixi abidələr elmi tədqiqata lazımınca cəlb edilməmişdir.

Bu mövzu XIX yüzillikdə baş vermiş rus işğallarından sonra E.A.Paxomov[1] tərəfindən qismən araşdırılmışdır. Doğrudur, antik dövr müəlliflərindən yunan coğrafiyaçısı Strabon Albaniyanın qərb bölgəsindən bəhs edərkən burada "çoxlu məbədləri olan torpaq"dan bəhs etmişdir. Qaynaqlarda bu bölgə ilə bağlı çox az məlumat vardır. Nəhayət, uzun illər ərzində araşdırılmamış şimal-qərb bölgəsi görkəmli tarixçi Y.M.Mahmudovun rəhbərliyi ilə tədqiqata cəlb edildi, bu sahədə bir neçə uğurlu tədqiqat əsəri nəşr olundu. Ə.Məmmədovun "Şimal-Qərbi Azərbaycan Zaqatala dairəsi", E.Lətifovanın "Şimal-Qərbi Azərbaycan-İlusu sultanlığı", Ş.Hacıəlinin "Şimal-Qərbi Azərbaycan: İngiloylar", Z.Cavadovanın "ªimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası" Arzu Əşrəfqızının "Car-Balakən

---

[1] Пахомов Е.А. Закатальская стена. Труды Азербайджанского Университета, Серия историческая, вып. I. 1950, с. 68-90

camaatlığı" monoqrafiyaları və İ.Əliyevanın[2] "Çar Rusiyasının Şimal – Qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr)" dissertasiya işi bu cür əsərlərdəndir.

XIX yüzillikdə Rusiyanın imperiya siyasətinə xidmət etmiş ayrı-ayrı müəlliflərin əsərlərində fərqli və maraqlı fikirlər vardır, lakin bir çox hallarda həmin müəlliflər qeyri-ixtiyari, bəzən isə bilərəkdən yanlışlıqlara yol vermişlər. M.A.Kotsebu, T.N.Yaişnikov, P.P.Zubov, D.E.Zubarev, A.Poserbski, İ.İ.Şopen, A.İ.fon-Plotto[3] da bu müəlliflər sırasındadırlar.

XIX yüzilliyin sonunda – XX yüzilliyin əvvəllərində də problemə yanlış, qərəzli, məqsədli yanaşma davam etmişdir. M.Q.Canaşvili, D.Z.Bakradze, B.S.Esadze[4] həmin ənənənin bariz nümayəndələri olmuşlar .

Digər gürcü tarixçiləri də Azərbaycanın şimal-qərb bölgəsini "tarixi Gürcüstan torpaqları" kimi təqdim etməyə çalışmışlar. Təbiidir ki, Azərbaycan tarixçiləri bu müəlliflərin əsassız iddialarını tənqid etmişlər.

Görkəmli rus tarixçisi İ.P.Petruşevski[5] Car-Balakənin azad icmalarının tarixini, bölgədəki ictimai-siyasi və iqtisadi münasibətləri araşdırmağa çalışmışdır. Onun bu mövzuya həsr etdiyi "Car-Balakən azad icmaları XIX

---

[2] Məmmədov Ə.F. Şimal-qərbi Azərbaycan: Zaqatala dairəsi. B., 2001; Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство. Б., 1999; Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. B., 2007; Cavadova Z.Ə. Şimal-qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası (XIX əsrin əvvəlləri-70-ci illəri). B., 2002; Məmmədova A.Ə. Car-Balakən camaatlığı (XVII əsrin sonu-XIX əsrin 30-cu illəri). B., 2009; Əliyeva İ.H. "Çar Rusiyasının Şimal – Qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr)". B.,2014, (avtoreferat)

[3] Коцебу М.А. Сведения о Джарских владениях 1826 г. ИГЭД. М., 1958; Яишников Т. Н. Военно-статистическое описание страны, Лежащей между юго-восточным хребтом Кавказа и рекою Алазанью выдержки из описания лезгино-джарских вольных обществ 1830 г. Издательство восточной литературы. 1958; Зубов Пл. Картина Кавказского края. Ч. III, СПБ.183; Зубарев Д.Е. Поездка в Кахетию, Тушетию, Пщавию, Хевсурию и Джаро Белоканскую область. // «Русский вестник». 1841, №6; Поссербский А. Ф. Закатальский округ. КК на 1866 г., Тифлис, типография Главного Управления, 1865; Шопен И. И. «Некоторые замечания на книгу „Обозрение российских владений за Кавказом"», СПб., 1840; Фон-плотто А.И.Природа и люди Закатальского округа. ССКГ, вып. IV, Тифлис, типография Глав. Упр. Наместника Кавказского, 1870.

[4] Бакрадзе Д.З. Заметки о Закатальском округе. Записки Кавказского отдела Императорского Русского Географического общества (КОИРГО). Кн. XIV, вып.I, Тифлис, типография канцелярии главноначальствующего на Кавказе, 1890; Эсадзе С. Историческая записка об управлении Кавказом, ч.1, Тифлис, типография Гуттенбергь, 1907;

[5] Петрушевский И.П. Джаро-белоканские вольные общества в первой половине XIX в., М.(ДНЦ РАН). 1993

əsrin birinci yarısında" adlı əsərində maraqlı fikirlərlə yanaşı, qərəzli fikirlərə də geniş yer verilmişdir.

Təəssüf ki, son dövrlərdə qonşu dövlətlərdə işıq üzü görən bəzi əsərlər gürcü, erməni və digər separatizmə meyilli qüvvələrin əlində təbliğat vasitəsinə çevrilmişdir. Belə əsərlərdən biri T.Aytberovun "Zafqaziya Avarları" əsəridir ki, bu əsərdə Balakən və Zaqatala rayonları ərazisində tarixi abidələrimizlə bağlı heç bir elmi əsası olmayan iddialar irəli sürülür.

X.Qeniçutliniskinin[6] nəşr etdirdiyi "Tarixi biblioqrafiya və tarixi oçerklər" adlı əsərində Qafqaz xalqlarının birliyindən daha çox Rusiyanın imperiya siyasətinə xidmət göstərməyə çalışmış, bu cəhdi ilə adı yuxarıda xatırlanan T.Aytberovdan[7] geri qalmamışdır.

Görkəmli gürcü mütəfəkkiri İlya Çavçavadze[8] "Erməni alimləri və fəryad edən daşlar" əsərində, Gürcüstana qarşı ərazi iddiaları irəli sürməyə cəhd edən erməni alimlərinə cavab verərkən, yeri gəldikcə Azərbaycanla, onun tarixi, tarixi abidələri ilə bağlı faktlara müraciət etmişdir. Həmin istinadların çoxu Azərbaycanın məhz şimal-qərb bölgəsi ilə bağlıdır.

Mövzunun araşdırılmasına yardım edən əsərlər sırasında D.A.Axundovun "Azərbaycanın qədim və erkən orta əsrlər memarlığı", İ.M.Rəhmanovun "Böyük Zaqatala Səddi"[9] əsərləri də vardır.

Bölgənin tarixi abidələrinin (xüsusilə Albaniya dövrü abidələrinin) öyrənilməsində arxeoloq A.Qarahmədovanın[10] rəhbərliyi ilə Azərbaycan Elmlər Akademiyasının ötən əsrin 80-cı illərində burada işləmiş ekspedisiyanın fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Məhz bu ekspedisiyanın fəaliyyəti və həmin tədqiqat işləri nəticəsində "Qafqaz Albaniyasının xristian abidələri (Alazan hövzəsi)" adlı əsər yazıldı. Bu sahədə

---

[6] Геничутлинский Х. Историко-библиографические и исторические очерки. Махачкала: 1992.

[7] Айтберов Т. Закавказские аварцы. Махачкала, 2000, 196 с.

[8] Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камни. Баку: Элм, 1990, 123 с.

[9] Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку: Аернешр, 1986, 309 с., Рахманов И.М. Загаталинская длинная стена. Баку: Элм, 1989

[10] Qarəhmədova A. Qafqaz Albaniyasının xristian abidələri. (Alazan hövzəsi). Bakı: Elm, 1986, 32 s

R.Göyüşovun, K.Əliyevin, İ.Rzayevin[11] əsərləri də diqqəti cəlb edir.

Ə.R.Salamzadənin "Şəkinin memarlıq abidələri" və G.Məmmədovanın "Kiş Qafqaz Albaniyasının – Azərbaycanın görkəmli memarlıq abidəsi"[12] adlı əsərləri isə bilavasitə tədqiq olunan mövzuya həsr edilmişdir.

Məşədixanım Nemətin[13] əsərlərində də bölgədəki İslam dövrü abidələri ilə bağlı olan maraqlı, mövzunun araşdırılması üçün faydalı məlumatlar vardır.

***Tədqiqatın mənbə bazası.*** Aparılan tədqiqatın əsas mənbə bazasını nəşr olunmuş mənbələr, arxiv sənədləri, dövrü nəşrlər təşkil edir.

Alban tarixçisi Musa Kalankatlının "Alban tarixi" əsəri ən dəyərli mənbələrdəndir. Yunan coğrafiyaçı və səyyahı Strabonun "Coğrafiya" əsəri Azərbaycan Respubliksının şimal-qərb bölgəsindəki tarixi abidələr, xüsusilə məbədlər haqqında məlumat vermiş ən qədim və çox dəyərli mənbədir. Strabon burada çoxsaylı məbədlər görmüş və ölkəmizin şimal-qərb bölgəsini "Məbədlər diyarı" adlandırmışdır.

Qafqaz Arxeoqrafiya Komissiyasının 1866-1904-cü illərdə Tiflisdə nəşr olunmuş 12 cildlik "Aktlar"ı[14] da istifadə olunmuş mənbələr içərisindədir.

Qafqaz Arxeoqrafiya Komissiyasının rus qafqazşünası A.P.Berjenin redaktəsi ilə nəşr olunmuş "Aktları" da Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin tarixinin araşdırılması üçün dəyərli mənbə hesab edilə bilər. Lakin bu Aktlardan istifadə edilərkən onun birtərəfli səciyyə daşıması və Rusiya imperiyasının müstəmləkəçi siyasətinə uyğun şəkildə tərtib edildiyi nəzərə alınmalıdır.

Azərbaycan Respublikasının şimal-qərb bölgəsi tarixinin öyrənilməsindən bəhs edərkən, antik dövr yunan coğrafiyaçısı Strabonun məlumatları çox əhəmiyyətlidir. Strabon Albaniyanın İberiyaya yaxın

---

[11] Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку: Элм, 1984, 191 с., Алиев К. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с., Rzayev N.İ. Əcdadların izi ilə. Bakı: Azərnəşr, 1992, 67 s.

12 Salamzadə Ə.R. Şəkinin memarlıq abidələri. Bakı: Elm, 1987, 140 s., Məmmədova G. Kiş Qafqaz Albaniyasının -Azərbaycanın görkəmli memarlıq abidəsi. Bakı: Qızıl Şərq, 2002, 104 s.

[13] Nemətova M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.

[14] Акты собранные Кавказской Археографической Комиссией (АКАК). Т.I-XII, Тифлис, Типог. Главного Управления Наместника Кавказа, 1866-1904.

ərazilərində çoxlu qoz və fındıq bağlarının olduğundan, Ay ilahəsinin şərəfinə tikilmiş məbədlərə rast olunmasından bəhs etmişdir. Ona görə də, o, buranı "çoxlu məbədi olan torpaq" adlandırmışdır.

Digər antik müəlliflərdən Ptolomeyin və Plininin də bölgəmizlə bağlı maraqlı məlumatları mövcuddur. Bizans müəllifi Favts Buzənd, Gəncəli Kirakos, Mixitar Qoş da Albaniyanın bu bölgəsinə dair qısa lakin dəyərli məlumatlar vermişlər. Alban tarixçisi Musa Kalankatlının "Alban tarixi", Mxitar Qoşun "Alban xronikası salnaməsi" əsərlərini, Alban kilsəsinin başçısı olmuş Yesai Həsən Cəlalın "Alban ölkəsinin qısa tarixi 1702-1722" əsərini də xüsusilə qeyd etməliyik.

XVI yüzillikdə yaşamış Osmanlı tarixçisi İbrahim Əfəndi Peçevi də "Tarix. Azərbaycanın və həmhüdud ölkə və vilayətlərin 1520-1640-cı illər dövrü tarixinə dair iqtibaslar" adlı əsərində Azərbaycan Respublikasının şimal-qərb bölgəsinə aid məlumatlar vermişdir.

Son dərəcə maraqlı və dəyərli mənbələrdən biri isə Alban kilsəsinin rəhbəri olmuş Həsən Cəlalın "Alban ölkəsinin qısa tarixi"[15] əsəridir. Burada Car-Balakən camaatlığının 1722-ci ildə Tiflis üzərinə yürüşündən, Tiflisin tutulmasından və həmin dövrün hərbi qaydalarına görə qənimətin qaliblər arasında bölüşdürülməsindən, Şərqi Gürcüstan (Kartli) hakiminin islam dinini qəbul etməsindən bəhs edilmişdir.

Az sonra Nadir şahın (1689-1747) və onun qardaşı İbrahim xanın bölgəyə yürüşlərində iştirak etmiş tarixçi-salnaməçi Mirzə Kazımın qeydlərində də maraqlı məlumatlar vardır. "Car salnaməsi"ndə məhz həmin dövrdə baş vermiş hadisələrdən ətraflı şəkildə bəhs edilmişdir.

Ərəb tarixçiləri Əl-Bəlazuri və İbn-əl-Fəqih Böyük Səddin tikilməsi ilə bağlı məlumat vermiş müəlliflər içərisində xüsusi yer tutur. Molla Məhəmməd əl-Cariyə aid edilən "Car salnamələri"[16]ndə də bölgənin bəzi tarixi abidələri haqqında müəyyən məlumatlar vardır.

XIX yüzilliyə aid olan mənbələr içərisində N.A.Volkonskinin[17] 5 may

---

[15] Yesai Həsən Cəlal. Alban ölkəsinin qısa tarixi: 1702-1722. Bakı: İşıq, 1993, 48 s.
[16] Sülehmanova S.Ə. Molla Məhəmməd əl-Cari. Car salnaməsi. Bakı: Səda, 1997, 146 s.
[17] Волконски Н.А. Война на Восточном Кавказе с 1824 по 1834 гг. в связи с мюридизмом. Кавказский сборник, т.XII, Тифлис, типография окружного штаба, 1888, с. 1-216.

847-ci il tarixində yazdığı arxiv materialları, A.Poserbskinin[18] yazdığı məlumatlar da çox əhəmiyyətlidir. 1890-cı ildə Zaqatala dairəsindəki xristian abidələrini öyrənmək üçün göndərilmiş A.S.Xaxanovun[19] qeydləri də mənbə kimi maraqlıdır.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Problemin tədqiqi səviyyəsi ilə tanışlıq göstərir ki, Azərbaycan Respublikasının şimal-qərb bölgəsindəki bir neçə abidə qismən araşdırılsa da, buradakı bütün abidələr məcmu halda indiyədək xüsusi tədqiqat obtekti olmamışdır.

Dissertasiyanın başlıca məqsəd və vəzifələri məhz bu gerçəklikdən irəli gəlir. Başlıca məqsəd Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin tarixi abidələrini araşdırmaq, bu günədək diqqətdən kənarda qalmış abidələri də tədqiqata cəlb etmək, həmin abidələrin ətraflı təsvirini və təsnifatını təqdim etməkdir. Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– Bölgədəki abidələrin ümumi vəziyyətini öyrənmək, onların təyinatını müəyyənləşdirmək;

– Abidələrin təsvirini və təsnifatını vermək;

– Müdafiə qalaları və keşikçi qüllələri haqqında məlumat vermək;

– Astral inanclarla və ibtidai dini baxışlarla bağlı olan abidələri müəyyən etmək, onların təsnifatını vermək;

– Xristianlıq dövrünün abidələrini müəyyənləşdirərək araşdırmaq;

– İslam dövrünün abidələrini (məscid, pir, minarə, mədrəsə) müəyyən edərək tədqiqata cəlb etmək.

***Dissertasiya işinin metodoloji əsası.*** Tədqiqatın nəzəri-metodoloji əsasını abidələrə dair tarixi materiallara istinad edilməsi, onlara obyektiv yanaşılması, indiyə qədər diqqətdən kənarda qalmış mənbələrin aşkar edilərək tədqiqata cəlb olunması, əldə edilmi° materialların təhlil olunması yolu ilə ümumiləşdirmələrin aparılması təşkil edir. Abidələr haqqında mənbələrdə verilmiş məlumatlarla, onların müasir vəziyyəti müqayisə edilmişdir. Araşdırma prosesində müqayisəli-tarixi metoddan geniş istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin tarixi abidələri Vətən tarix elmində ilk dəfə kompleks

---

[18] Поссербский А. Ф. Закатальский округ. КК на 1866 г., Тифлис, типография Главного Управления, 1865, с.3-60;

[19] Хаханов А.С. «Источников по введению христианства в Грузии». М., 1890.

şəkildə tədqiq olunur. Bu, araşdırma işinin elmi yeniliyinin başlıca cəhətidir. Tədqiqatın digər elmi yenilikləri aşağıdakılardan ibarətdir:

– Azərbaycan Respublikasının şimal-qərb bölgəsindəki əabidələrin tarixinin ilk dəfə olaraq geniş şəkildə öyrənilməsinə cəhd göstərilmiş, bu məqsədlə həmin abidələrin təsnifatı verilmişdir;

– Bölgənin abidələri təsnifatına (müdafiə qalaları, səddlər və istehkamlar) və dövrünə (astral inanclarla xristianlıqla, islam dini ilə bağlı olan) əsasən qruplaşdırılmısdır;

– Müqayisəli təhlil və analogiya vasitəsilə həmin abidələrin məhz Azərbaycan mədəniyyətinin və tarixinin üzvi, tərkib hissəsi olduğu göstərilmişdir;

– Azərbaycan Respublikasının şimal-qərb bölgəsinə qarşı əsassız ərazi iddiaları irəli sürən qüvvələrə tutarlı, elmi cəhətdən əsaslandırılmış cavablar verilmişdir;

– Tanınmış gürcü alimi Zaza Aleksidzenin[20] Albaniyaya dair obyektiv fikirləri ilk dəfə olaraq səslənmiş, güclü Alban dövlətinin olduğu və Azərbaycanın şimal-qərb bölgəsindəki məbədlərin və Böyük Səddin Alban torpaqlarında (Azərbaycanda) yerləşdiyi məhz onun müddüaları ilə sübuta yetirilmişdir;

– Bölgədəki tarixi abidələrin təsnifatı ilə yanaşı, bütün abidələrin təsviri də təqdim olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırmanın nəticələri Azərbaycan Respublikasının şimal-qərb bölgəsi tarixinin daha dərindən öyrənilməsi işinə yardım edə bilər. Tədqiqat zamanı tarixi abidələrlə bağlı əldə olunmuş zəngin materiallar, elmi nəticələr, ümumiləşdirmələr Azərbaycan tarixinə həsr olunmuş dərsliklərin, dərs vəsaitlərinin və digər əsərlərin yazılmasında istifadə edilə bilər. Bu isə öz növbəsində bəzi tarixi əsərlərdə həmin abidələrlə bağlı indiyədək lazımınca əsaslandırılmamış fikirlərə son qoya, tarixi abidələrlə zəngin olan bu bölgəni beynəlxalq turizm ocaqlarından birinə cevirə bilər.

Təbii imkanları son dərəcədə geniş olan bu bölgədəki nadir tarixi

[20] Aleksidze Z. Qafqaz Albanları dilləndilər. Tbilisi: "Artanuçi", 2003.128 s

abidələrin bir qismi bərpa edilərsə, hər bir abidənin yanında onun inşası tarixi və təyinatı ilə əlaqədar olan gərəkli bilgi və məlumatlar yazılarsa, həm bölgənin həm də bütövlükdə Azərbaycan tarixinin təbliği, əlalinin maariflənməsi, bölgədə turizmin genişlənməsi üçün əlverişli şərait yaranar.

Tarixdə Çin Səddi, Dərbənd Səddi, Bizans divarları qədər insanların ilgisini çəkəcək "Böyük Sədd"in gercək tarixinin üzə çıxarılması bu abidə ilə bağlı dumanlı fikirləri yox edər, vətən tarixi qarşısında vətəndaşlıq borcunun yerinə yetirilməsi olar.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunda və araşdırılan bölgədə həyata keçirilmişdir. Tədqiqat işinin başlıca müddəaları müəllifin son 18 ildə nəşr etdirdiyi kitablarında, Azərbaycan Respublikasında və xaricdə dərc olunmuş elmi məqalələrində, beynəlxalq konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 4 fəsil, nəticə və istifadə olunmuş mənbələrin və ədəbiyyatın siyahısından ibarətdir. Müəllifin problemə dair çap olunan elmi məqalələri dissertasiyanın əsas məzmununu əhatə edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, onun xronoloji çərçivəsi və tədqiqi səviyyəsi şərh edilmiş, araşdırmanın məqsədi, vəzifələri və metodoloji əsasları müəyyənləşdirilmişdir, işin elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"Azərbaycanın şimal-qərb bölgəsi: tarixi, toponimləri və əhalisi"** adlanan birinci fəslinin ilk yarımfəsli **"Şimal-Qərb bölgəsinin tarixi-coğrafi icmalı"** bölgənin tarixinə, yerləşdiyi coğrafi mövqeyinə, antik müəlliflərin bu barədə verdiyi məlumatlara həsr edilmişdir. Bu yarımfəsil, bölgənin Azərbaycan tarixindəki, həmçinin Azərbaycan Albaniyası dövrü tarixində yerləşdiyi geopolotik, strateji əhəmiyyətinin geniş təhlili ilə başlanır.

Yunan, latın, alban, gürcü, ərəb və fars mənbələrində, habelə nisbətən sonrakı dövr tarixçi və coğrafiyaşünaslarının əsərlərində Qafqaz Albaniyası haqqında müəyyən məlumatlar vardır. Azərbaycanın şimal-qərb bölgəsi ilə

bağlı olan mənbələrin azlığı bu bölgənin tarixinin tədqiq olunması işində müəyyən çətinliklər yaradır. Məhz buna görə də maddi-mədəniyyət abidələri, xüsusilə tarixi abidələr bu baxımdan çox əhəmiyyətlidir və bölgənin tarixinin, mədəni həyatının dərindən öyrənilməsi üçün müəyyən imkanlar yaradır.

Azərbaycan Albaniyası və alban tayfalarının öyrənilməsi işinə toponimika, etnopsixologiya, adət-ənənələr və müxtəlif etiqadların qalıqları da xeyli yardım edir. Eramızın I yüzilliyində yaşamış Plininin "Təbiət tarixi" adlı əsərində Albaniya və alban tayfaları haqqında qiymətli məlumatlar verilir. Bu məlumatlar içərisində Azərbaycanın şimal-qərb bölgəsi ilə bağlı olanları da az deyildir.

Azərbaycanın şimal-qərb bölgəsi haqqında eramızdan öncə və eramızın birinci yüzilliyində yaşamış yunan coğrafiyaşünası və səyyahı Strabon nisbətən geniş məlumat vermişdir. Bir çox ölkələri səyahət etmiş Strabon 17 kitabdan ibarət olan çox dəyərli tarixi-coğrafi əsər yaratmışdı. Qafqaz Albaniyasına aid olan məlumatlar Strabonun XI kitabındadır. Bu kitabda Albaniyanın coğrafi vəziyyəti, əhalisi, məşğuliyyəti, dili, qoşunu, adət və ənənələri məsələlərinə toxunulmuşdur. Strabonun müasiri olmuş Plutarx "Müqayisəli həyat təsvirləri" əsərində dövrünün görkəmli şəxslərindən, onların həyatından bəhs edərkən Albaniyadan və alban tayfalarının ümumi düşmənə qarşı mübarizəsi haqqında da məlumat vermişdir. Azərbaycan Albaniyasının tarixinin öyrənilməsində ikinci əsrdə yaşamış yunan coğrafiyaşünası və astronomu Klavdi Ptolomeyin "Coğrafiya" əsərinin də böyük əhəmiyyəti vardır.

Bu yarımfəsildə son illər bölgədə aparılan arxeoloji qazıntılarla bağlı geniş məlumat verilmişdir.

I fəslin II yarımfəsli **"Bölgənin qədim toponimləri"** adlanır. Bu yarımfəsildə bölgədəki qədim toponimlərin yaranması tarixindən, qədim türk tayfalarının (prototürklərin) axınlarından və bu prosesin toponimlərin yaranmasına və formalaşmasına ciddi təsirindən bəhs edilmişdir.

Toponimlər xalqın tarixinin öyrənilməsi, bəzi qaranlıq məqamların aydınlaşdırılması üçün danılmaz sübutlar, dəyərli məlumatlar mənbəyidir. Toponimik materiallar tarixi araşdıran tədqiqatçılar üçün xalqın tarixinin, dilinin, etnogenezinin (xalqın formalaşması), tarixi coğrafiyasının öyrənilməsi zamanı tutarlı dəlil, inandırıcı fakt rolu oynayır. Buna görə biz də fikrimizi

əsaslandırmaq üçün toponimlərə istinad etmiş, toponimika elminin bu sahədə bizə yaratdığı geniş imkanlardan bəhrələnməyə çalışmışıq.

İlk növbədə onu qeyd edək ki, toponimlər (yer adları) adətən konkret ərazidə yaşamış qəbilənin, tayfanın adından, bəzən isə həmin yerin relyefindən, coğrafi şəraitindən asılı olaraq yaranır. Coğrafi adların bir qismi mənsub olduğu xalqın və onun formalaşmasında iştirak etmiş ayrı-ayrı tayfaların və etnik qrupların adlarından törənmişdir. Əslində toponimika tarix elminin, tarixi coğrafiyanın bir hissəsidir.

Antik yunan və Roma müəllifləri, xüsusilə Strabon və Ptolomey, orta əsrlərin ərəb, Bizans, gürcü və alban müəllifləri Azərbaycanın şimal-qərb bölgəsinə aid bir çox toponimlərdən bəhs etmişlər.

Tarixçilərə, etnoqraflara və dilçilərə məlumdur ki, adətən toponimlərin çoxu etnonimlərdən (yəni burada yaşayan tayfanın, xalqın adından) törənmişdir.

Qədim Azərbaycan toponimlərini araşdırmış tədqiqatçılardan Y.B.Yusifov və S.K.Kərimov[21] Qullar, Gərəkli, Tülü, Qazma (Balakən rayonunda yer, kənd adları – M.A.) kimi kənd adlarının da eramızın əvvəllərindən etibarən burada yaşamış (məskun olmuş) yerli türk tayfalarının adlarından törəndiyini göstərmişlər.

Azərbaycan tarixinin sistemli şəkildə xronoloji ardıcıllıqla öyrənilməsinə ciddi təşəbbüs göstərmiş A.A.Bakıxanov toponimlərin araşdırılmasına da xüsusi diqqət yetirmişdir. O, farsca yazdığı və sonralar ruscaya tərcümə etdiyi "Gülüstani-İrəm" əsərində (1841) qeyd etmişdir ki, "nəinki əsrlər, hətta min illər də bu ölkənin bir çox yerlərinin və tayfalarının ilkin adlarını məhv edə bilməmişdir"[22].

Bir çox yerlərdə olduğu kimi, Azərbaycanın şimal-qərb bölgəsində də toponim və hidronimlərin çoxu bu yerlərdə yaşamış qədim etnonimlərdən (tayfa, nəsil və qəbilə adlarından) yaranmışdır. Məsələn, Balakən rayonu ərazisindəki Hunbol çayı eramızın əvvəllərindən etibarən buraya köç etməyə başlamış hun tayfalarının adı ilə bağlı olduğu şübhəsizdir.

Əgər Azərbaycan Respublikasının şimal-qərb bölgəsindəki "binə"

---

[21] Yusifov Y.B, Kərimov S.K. Toponimikanın əsasları. Bakı: Maarif, 1987,
[22] Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı: Elm, 1991, 287 s.

sonluqlu müxtəlif toponimləri araşdırsaq, çox maraqlı nəticə ortaya çıxar. Öncə onu qeyd edək ki, Azərbaycan Respublikasındakı "binə" sonluqlu onlarla müxtəlif toponimin əksəriyyəti Balakən və Zaqatala rayonlarının ərazisindədir. Balakən rayonu ərazisində – Qaracabinə, Bayrambinə, Darvazbinə, Çökəkbinə, Şanbulbinə, Arılıqbinə, Acılıqbinə, Çorçorbinə, Poşbinə və s. yer adları vardır. Zaqatalada da mövcud olan Talabinə və digərləri buna misaldır.

Binə məntəqələri qədimdə maldarlıqla məşğul olmuş türk qəbilələrinin və tayfalarının müvəqqəti yaşayış yeri idi.

Bölgədə araşdırılmasına ehtiyac olan oykonimlərdən biri də "tuqay"dır. "Tuqay" sözü müasir Azərbaycan türkcəsinə görə arxaik (qədim) sayıla bilər. Bu sözə türk dillərinə aid yazılı mənbələrdə "toqay" formasında, müxtəlif mənalarda ("çay kənarı meşəlik sahə", "meşə ilə örtülmüş çəmən, ovalıq") təsadüf olunur. Balakən, Zaqatala və Qax rayonları ərazisindəki, habelə Qanıx çayı sahilindəki sıx meşələrə "tuğay meşəsi", buradakı çöl ərazilərə isə "tuğay çölü" deyilir. "Tuğay meşəsi" dedikdə çay kənarındakı sıx, keçilməz meşə nəzərdə tutulur.

I fəslin **"Bölgənin əhalisi"** adlanan III yarımfəslində bölgədə yaşayan və ən çox say üstünlüyünə malik türklər, avarlar, saxurlar və igiloylar haqqında geniş məlumat verilmişdir.

Qədim mənbələrdə bölgə haqqında verilmiş məlumatlar və buradakı toponimlərin təhlili göstərir ki, ölkəmizin şimal-qərb bölgəsi ən qədim türk diyarıdır. M.Seyidovun fikrincə, "Azərbaycan xalqının soykökü barədə düşünərkən onun keçdiyi yolu diqqətlə nəzərdən keçirmək lazımdır. ...Bu xalqın soykökündə başlıca olaraq, türkdilli soybirləşmələri, qəbiləbirləşmələri durmuş və vaxtaşırı burada yaşayan etnik qruplar da onlara qaynayıb-qarışmışdır"[23]. Lakin qeyd edək ki, bölgədə yaşayan ən çoxsaylı etnos olmasına baxmayaraq, bu günədək tarixi daha çox təhrif olunmuş xalq muğallar-türklərdir. Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarının ərazisində, Qanıx çayı boyunca təsadüf olunan kurqanlar "kimmer", "skif", "sak" adları ilə tanınmış qədim türklərin, prototürklərin yadigarıdır. Oğuz

[23] Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

rayonu ərazisində 2008-2009-2010-cu ildə aşkarlanmış son tunc-inkişaf etmiş dəmir dövrünə aid torpaq qəbirlər (e.ə. XIII-VI əsrlər) bu fikri bir daha təsdiq edir, suvari qəbirləri xüsusi maraq doğurur. "Saka+tala", "Sakan+dərə", "Sakasena", "Qımırlı", "Qımır bazar" kimi toponimlər də bu qədim türk soylarının burada qalmış izləridir. Sonralar Cənubi Qafqaza köçmüş türk tayfaları buradakı dağ keçidlərindən istifadə etmişlər və bu günədək həmin keçidlərdən biri Qax rayonu ərazisində, İlisudadır və "hunaşırımı" və ya "hun beli" adlanır. Balakən rayonu ərazisindəki "Hunbul", yaxud "Hunbol çay" hidronimi də, Hunələr (Hinələr) nəsli də eramızın əvvəllərindən bu bölgəyə gəlmiş hun türklərinin adı ilə bağlıdır.

Azərbaycan Respublikasının şimal-qərb bölgəsində yaşayan xalqlardan biri də avarlardır və onlar bölgədə türklərdən sonra sayca ikinci mövqedədirlər. Avarlar Balakən və Zaqatala rayonları ərazisində yaşayırlar. Onların sayı 50 mindən çoxdur (son statistik məlumatlara görə).

Antik dövrün mənbələrində bölgədə yaşamış etnoslar arasında avarların adı çəkilmir. Qədim qaynaqlarda burada yaşamış gellər, leqlər, lpinlər və silvlər barədə məlumat vardır. Q.Qeybullayev müasir avarları burada yaşamış silvlərlə sonralar – VI-VII yüzilliklərdə buraya gəlmiş türklərin – avarların qarışığı hesab edirdi.

L.Qumilyov, V.V.Bartold[24] da avarların etnik mənşəyini araşdırmış, qədim avarlarla çağdaş avarların eyni xalq olduğunu bildirmişlər. Belə qənaətə gəlmək olar ki, avarlar "xalqların böyük köçü" zamanı və sonrakı dövrdə Avropaya köçərkən, onların bir hissəsi burada qalmış və dağlı silv tayfaları ilə qaynayıb-qarışmış, "Silv" adı itmiş və sayca daha üstün olduğu üçün "avar" adı hər iki etnik kütləyə şamil edilmişdir. Avarların təşəkkülü, onların Azərbaycanda məskunlaşması məsələlərinə toxunmuş M.H.Baharlı[25] bu nəticəyə gəlmişdir ki, Azərbaycan avarları özlərini "baqualal" adlandırır, Qafqaza gəldiklərini bəyan edirlər.

Azərbaycan Respublikasının şimal-qərb bölgəsində yaşayan etnoslardan biri də saxurlardır. Onlar əsasən Zaqatala rayonunun Suvagil, Mamrux və Gözbarax kəndlərində yaşayırlar. Son dövrdə bu sahədə xeyli dəyərli

---

[24] Qumilyov L.M. Qədim türklər. Bakı, Azərnəşr, 1993, 450 s.; Бартолд В.В. Сочинения.VIII т. Москва: Наука, 1973, 657 с.
[25] Məhəmməd Həsən Vəliyev(Baharlı). Azərbaycan Bakı: Azərnəşr, 1993, 189 s.

araşdırmalar aparmış E.Lətifova "saxur" sözünün etimologiyasını araşdırmış və iki variant təklif etmişdir: Birinci varianta görə, "saxur" sözü iki komponentdən əmələ gəlmişdir: sa – od və xur – kənd. E.Lətifova[26] bu fikrini xristianlığaqədərki dövrdə (IV əsrədək) burada atəşpərəstliyin olması ilə əlaqələndirir.

Bölgədəki sak məskənlərindən biri olmuş Sakasena (Şəki) Saxur yaşayış məntəqəsinin qonşuluğunda yerləşir və saklarla bağlı çoxsaylı toponimlər də məhz buradadır. Məsələn, Sakatala, Sakandərə və s. Saxurların tarixən bağlandıqları ərazilər məhz bu bölgədir.

Bu məsələyə münasibətdə E.Lətifova ilə həmfikir olan A.Məmmədova[27] isə güman edir ki, "burada məskunlaşan sak tayfaları yerli tayfalarla qaynayıb-qarışmışlar. Eyni zamanda, müasir saxurların etnogenezində məhz saklar əsas rol oynamışlar".

İngiloyların mənşəyi barədə uzun müddət yanlış fikirlər hakim olmuşdur. Yunan, Bizans, alban, gürcü və ərəb mənbələrində oxşar, bəzən isə fərqli adlarla xatırlanan ingiloylar barədə yaxın zamanlaradək belə bir fikir hakim idi ki, onlar gürcüdilli, gürcüləşmiş müsəlmanlar, müsəlmanlaşmış gürcülərdir. Lakin son tədqiqat əsərlərində (Ş.H.Əliyevin tədqiqatları) göstərilir ki, ingiloylar ən qədim dövrlərdən bəri Azərbaycanın şimal-qərb bölgəsində yaşamış "gellər"in varisləridir[28].

Beləliklə, bölgədə əsrlər boyu yaşamış və hal-hazırda da yaşayan etnosların mənşəyinə, başlıca təşəkkül mərhələlərinə, maddi və mənəvi mədəniyyət dəyərlərinə qısaca baxış belə bir nəticə çıxarmağa imkan verir ki, buradakı tarixi abidələr qədim, vəhdət halına gəlmiş mədəni toplumun çoxəsrlik yaradıcılıq fəaliyyətinin nəticəsidir və bu fəaliyyətdə aparıcı rol əsrlər boyunca Azərbaycan türklərinə məxsus olmuşdur.

Dissertasiyanın II fəsli **"Müdafiə səciyyəli abidələr və onların təsnifatı"**adlanır. Bu fəslin **"Sədlər və istehkamlar"** adlanan I yarımfəslində bölgənin müdafiə tikililərindən, sovet tarixşünaslığında "Zaqatala Səddi", İran mənbələrində "Kala Sur" adlandırılan və qalıqları Balakən rayonunun Katex

---

[26] Летифова Э.М. Северо- западный Азербайджан: Илисуйское Султанство. Баку: Алтай, 1999, 109 с.
[27] Arzu Əşrəfqızı. Car-Balakən camaatlığı. Bakı: UniPrint, 2007. 256 s.
[28] Ş.Hacıəli. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: Təhsil, 2007, 280 s.

kəndi ərazisində qalan “Böyük Qafqaz Səddi”ndən xüsusilə geniş bəhs edilmişdir.

Sasani sülaləsi hakimiyyətə gəldikdən sonra Cənubi Qafqazı ələ keçirmək uğrunda Roma imperiyası ilə Sasani dövləti arasında uzun sürən müharibələr başlanmışdı. Ərəb tarixçisi Yaqut Əl-Həməvinin verdiyi məlumata görə, Sasani Şahənşahı Firuzun oğlu I Qubad (488-531-ci illər) xəzərlərə qarşı daha ciddi mübarizə aparmağa çalışırdı. Lakin Azərbaycanın Şimal-Şərq və Şimal-Qərb ərazilərində şimaldan gələn hücumların qarşısını almaq mümkün olmurdu. Ərəb tarixçisi Əl-Bəlazurinin verdiyi məlumata görə, Bab-ül-Əbvab (“Qapılar qapısı”, Dərbənd), Bab-Alan (“Alan qapısı”, Dəryal dərəsi) arasından Böyük Qafqazın şimalından cənuba keçmək üçün dağlarda 10-adək keçid vardır. Sasanilər bu keçidlərin qarşısında qalalar tikdirərək burada hərbi hissələr yerləşdirmişdilər. İbn əl-Fəqih bu qalalardan bəhs dərkən qeyd edirdi ki, Sasanilər Bab-ül-Əbvab ilə Bab-Alan arasında 360-a qədər qala tikdirmişlər. Bununla da şimaldan gələn hücumların qarşısı alınmamış və adı çəkilən “Böyük Qafqaz Səddi”ni tikməyə məcbur olmu°lar.

II fəslin II yarımfəsli **“Qalalar və bürclər”** adlanır. Bu yarımfəsildə bölgədə geniş yayılmış “Pəri qala”larından, sirt qalalarından, gözətçi məntəqələri, keşikçi qüllələri və büclərdən bəhs edilmişdir. Azərbaycan Respublikasının şimal-qərb bölgəsində “Pəri qala” adı altında bir neçə qala və məbəd vardır. Onlardan ən möhtəşəmi və “Pəri qala” adına ən uyğun olanı Balakən rayonunun Gərəkli kəndində, dağın sirtində, hərbi-strateji cəhətdən çox əhəmiyyətli bir yerdədir. Qeyd edək ki, Gərəkli və Qullar kəndlərinin adları bulqar türklərindən olmuş eyniadlı tayfaların adlarından törəmişdir. Tədqiqatçılar bu türk tayfalarının daim hunlarla birgə köç etdiklərini, yürüşə çıxdıqlarını qeyd etmişlər. Məhz Gərəkli və Qullar kəndi ərazisindən keçən çay “Hunbul çay” adlanır.

Bölgədəki müdafiə qurğuları içərisində keşikçi qüllələri öz quruluşuna, memarlıq üslubuna görə xeyli fərqlənir. Bu cür keşikçi qüllələrinin qalıqları Balakən rayonunun Katex, Zaqatala rayonunun Masex, Car və Göyəm kəndləri ərazisində qalmaqdadır. Həmçinin, Balakən rayonunun Beretbinə və Poştbinə kəndi ərazisində yerləşən və tarixi ədəbiyyatlarda haqqında heç bir məlumat olmayan müdafiə qurğuları haqqında da geniş məlumat verilmişdir.

Bölgədəki tarixi abidə və qalalar içərisində xüsusi maraq doğuran

abidələrdən birisi də 1863-cü ildə Zaqatalada Çar Rusiyasının müstəmləkəçilik və zorakı xristianlaşdırma siyasətinə qarşı böyük üsyan qaldırmış Hacı Murtuzun qala-evidir.

Yarımfəslin digər hissəsində isə Şəki və Qax rayonları ərazisindəki, xüsusilə İlisu kəndi ərazisindəki qalalardan bəhs edilmişdir.

Dissertasiyanın III fəsli **"İslamaqədərki məbədlər"** adlanır. Bu fəslin **"İbtidai dinlər və astral inanclarla bağlı olan məbədlər"** adlanan I yarimfəslində bölgədəki ən qədim məbədlərdən və onların memarlıq üslübündan bəhs edilmişdir. Azərbaycan Albaniyasında ibtidai dinlər, bu dinlərlə bağlı yaranmış adətlər və ibadət yerləri, tikilmiş ibadətxanalar barədə araşdırmalar aparmış K.Əliyev, R.Görüşov, Q.Qeybullayev[29] qeyd etmişlər ki, monoteist (tək allahlı) dinlər (xristianlıq, islam) dövlət dini kimi qəbul edilsə də ibtidai dini baxışlar uzun müddət mövcud olmuşdur. Bu izlər hətta bu gün də mövcuddur.

Burada yaşamış insanların ən qədim inamları təbiət qüvvələri və daşla bağlı olmuşdur. Qədim dövrdə daşa inam, ona bağlılıq fövqəladə dərəcədə güclü idi. İnsanlar elə düşünürdülər ki, daşın ruhu vardır. Onlar bəzən daşdan yardım istəyir, daşa tapınırdılar. Bölgədə izləri qalmış əski inanclardan biri də göy (səma) cisimləri ilə (Ay, Günəş) bağlıdır. Bu dini inanclar hal-hazırda da yaşamaqdadır. Maraqlıdır ki, bölgədə Aya inamla bağlı olaraq dağdağan ağacına da inam vardır. Bölgənin qədim sakinləri Ayın kosmik enerjisinin dağdağan ağacına keçdiyinə inanırdılar. Bununla bağlı məbədlərdən birisi Qax rayonu ərazisində yerləşən Kürmük məbədinin yanındakı qara qayanın üzərində hələ eramızdan əvvəl tikildiyi güman edilən Ay məbədinin qalıqlarıdır. Aya inamla bağlı digər məbəd Zaqatala rayonu ərazisindəki Armatay dağında tiklən və qalıqlaı indiyədək qalan məbəddir. Həmçinin bölgədə oda sitayişlə bağlı məbəd də mövcuddur. Bunlardan birinin qalıqları Balakən rayonunun Tülü kəndi ərazisində qalmaqdadır.

III fəslin II yarımfəsli **"Xristian dövrü abidələri"** adlanır. Bu yarımfəsildə bölgədə olan və araşdırmaya cəlb olunmamış xristian dövrü abidələri geniş araşdırılmış, öz dövrünün səyyah və tarixçilərinin əsərlərində

---

[29] Алиев К. Писатели античности об Азербайджана.Баку: Элм, 2001, 164 с.; Геющев Р.Б. Христианство в Кавказской Албании. Баку: Элм, 1984, 191 с.; Гейбуллаев Г.А.К этногенезу азербайджанцев. Т.1. Баку: Элм, 1991, 552 с.

bu abidələr haqqında yazdıqları qeydlər təhlil edilərək, diqqətə çatdırılmışdır. Alban salnaməçisi Mxitar Qoş[30] Qafqaz Albaniyasında xristianlığın qəbul edilməsi tarixi haqqında yazmışdır: "...Müqəddəs Yeliseydən müqəddəs Qriqorisə qədər 300 il keçmişdir". Musa Kalankatlının "Aqvan tarixi"[31] salnaməsindən məlum olur ki, İsa peyğəmbərin şagirdi olmuş müqəddəs Faddeyin xristian dinini yaymaq məqsədilə başladığı missionerlik fəaliyyəti faciə ilə nəticələnmiş, müqəddəs apostol qətlə yetirilmişdir. Apostol Faddeyin şagirdi müqəddəs Yelisey Qüds şəhərinə qayıdıb apostolun şəhid olduğunu bildirir. İsa peyğəmbərin din qardaşı müqəddəs Yakov xristianlığı təbliğ etmək üçün müqəddəs Yeliseyi Albaniyaya göndərir. Çola vilayətində missionerlik etdikdən sonra ölkənin Uti vilayətinin Kiş kəndinə gələn müqəddəs Yelisey orada kilsə tikdirir". Yalnız Azərbaycan Albaniyası ərazisində deyil, ümumiyyətlə, Zaqafqaziyada tikilmiş ilk xristian kilsəsi olan məşhur Kiş məbədi hazırda Şəki rayonunun Kiş kəndində yerləşir.

Bu yarımfəsildə bölgədə yerləşən və qonşu dövlətlərin də diqqətini çəkən Darvaz, Arılıqbinə, Mazımçay, Cicixana, Katex, Qabaqçöl, İsaxlıgirmə, Nur kilsə, Paşan, Mamrux, Qum, Ləkit məbədlərindən geniş bəhs edilmiş və bunların əksəriyyəti elmi ədəbiyyatda ilk dəfə işıqlandırılmışdır.

Dissertasiyanın IV fəsli **"İslam dövrü abidələri"** adlanır və I yarımfəsil olan **"Dini səciyyəli abidələr"** bölümündə İslam dininin bölgədə yayılması və yeni dinlə bağlı abidələrin – məscid, pir, xanəgah və ziyarətgahların tikilməsindən geniş bəhs edilmişdir. Bu məscid və digər islam dövrü abidələrinin tikilmə tarixinin öyrənilməsində onların üzərindəki kitabələr xüsusi rol oynayır.

Azərbaycanda islam memarlığının ən nadir incilərindən biri Balakən rayonunun mərkəzindəki minarəli məsciddir. Bu minarəli məscid daxildən və xaricdən düzbucaqlıdır, sahəsi 1025 kvadrat metrdir. Məscidin əsas binasından ayrı tikilmiş minarənin hündürlüyü 45 metrə yaxındır. Minarə yaxşı bişmiş kərpicdən tikilmişdir və səkkiz tillidir. Yuxarı qalxdıqca minarə daralır. Bu isə onun müxtəlif təbiət qüvvələri qarşısında dözümlüyünü artırır.

Məscidin fasadında – dörd yerdə qabarıq formada ərəb dilində, süls

[30] Mxitar Qoş. Alban salnaməsi. Bakı: Elm, 1993, 273 s.
[31] Musa Kalankatlı. Alban tarixi. Bakı: Elm, 1993, 272 s.

ünsürlü nəsx xətti ilə kitabələr həkk edilmişdir. Bu kitabələrdə məscidin tikilmə tarixi və digər vacib məlumatlar öz əksini tapmışdır.

Kitabələrin ətrafı böyük ustalıqla, zərif tərzdə işlənmiş, müxtəlif nəbati ornamentlərlə bəzədilmişdir. Bu isə gözəl memarlıq ünsürlərindən biridir.

Ölçüləri 33x137 sm olan, məscidin giriş qapısından yuxarıda, daş lövhəyə həkk olunmuş kitabədə yazılanların tərcüməsi belədir: "Ey müsəlmanlar, dünyada heç bir şey daimi deyil, hər şey keçib gedəndir, bir daha geri qayıdan deyil. İnsan da öz dünyasında sabit deyil. Öz Rəbbinə qovuşmaq istəyən, heç kəsə ibadət etməməli, yalnız öz Rəbbinə ibadət etməli və doğru, düzgün işlər görməlidir. Yalnız axirət gününü fikrində canlandıranlar mömin insanlardır. Binanın tikilməsinə başladıq hicri 1284-cü ildə, onu başa çatdırdıq hicri 1294-cü ildə". Bu, məscidin ikinci kitabəsində yazılanlardır.

Üzərindəki kitabələri oxuduqda məlum olur ki, bölgədəki ən qədim məscidlərdən biri Katex kəndinin yuxarı hissəsində son dərəcə geniş bir qəbiristanlığın ortasında tikilmiş məsciddir. Üzərindəki kitabəyə görə XIII-XIV əsrlərdə inşa edildiyi bildirilən məscidin tavanı nəhəg şabalıd sütunların üzərində durur və məscidin ətrafındakı ərazinin torpaq qatı xeyl artmışdır.

Bölgədə ən böyük məscid isə Zaqatalanın Tala kəndindəki məsciddir ki, XVIII-XIX əsrlərdə eynilə bu üslubda tikilən Qayvalı, Qabaqçöl, Danaçı məscidləri eyni memarlıq məktəbinin nümunəsidir.

İslam dövrü abidələri içərisində Balakən Cümə məscidinin minarəsi ilə Zaqatala Mosul məscidinin minarəsi eyni üslubda tikilmiş və eyni ornamentlərlə bəzədilmişdir. Sanki, az zaman fərqi ilə "eyni ustanın əlindən çıxmış", yaxud, eyni memarlıq məktəbinin müxtəlif davamçıları tərəfindən tikilmişdir. Balakəndəki Qaracılı, İtitala, Zaqataladakı Əliabad məscidləri isə öz orijinallığı ilə seçilir.

Bu gün İlisuda qorunub saxlanmaqda olan tarixi abidələr əsasən İlisu sultanlığının mövcud olduğu dövrə aiddir. Ulu məscid, Ulu körpü və onlarla qala bu tarixin şahidi kimi qalmaqdadır.

Əsasən XVII-XVIII yüzilliklərə, İlisu sultanlığının formalaşması və yüksəlişi dövrünə aid olan bu abidələr öz quruluşuna, tikinti üslubuna görə Azərbaycanın şimal-qərb bölgəsinə xas olan ümumi cəhətləri özündə əks etdirməklə yanaşı, sırf yerli memarlığa xas olan əlamətləri də özündə əks

etdirir.

İlisu ustalarından, onların yaratdığı memarlıq üslubundan bəhs edərkən bölgədəki ən nadir memarlıq abidələrindən biri olan Balakən Cümə məscidinin də İlisulu usta Ömər tərəfindən tikildyini qeyd etməliyik. Bu barədə Balakən Cümə məscidinin kitabələrinin birində yazılmışdır.

Apardığımız Araşdırmalar nəticəsində müəyyən etdik ki, XVIII-XIX yüzilliklərdə islam memarlığının "İlisu məktəbi" formalaşmışdı. Zaqatalada və Balakəndə tikilmiş bir neçə məscid və minarələr qəti olaraq bu memarlıq məktəbinin yadigarlarıdır.

İlisudakı küçələrin və evlərin quruluşu da özünəməxsus cəhətləri ilə seçilir. Evlər tikilərkən onun yalnız yaşayış obyekti olması faktı deyil, həm də müdafiə olunmaq, qorunmaq faktı da nəzərə alınırdı. Beləliklə, hər bir ev həm də ailənin sığınacaq yeri, qalası idi. Bu, İlisunun hərbi-strateji mövqeyi ilə, Cənubi Qafqazın tarixində oynadığı xüsusi rolu ilə bağlı idi. Bu hal həm də tarixi ənənədən irəli gəlirdi. İlisu sultanlığının bölgədə və bütövlükdə Azərbaycan tarixində xüsusi yeri, rolu olmuşdur. O cümlədən, islam dövrü abidələrinin.

Bu abidələr üzərində müxtəlif həndəsi və nəbati ünsürlərlə yanaşı, ən qədim dövrlərdən bəri müxtəlif türk xalqlarında, o cümlədən Səlcuq dönəmində geniş istifadə edilmiş və islamda cənnətin səkkiz qapısına işarə olan səkkiz guşədən geniş istifadə edilmişdir.

Bu məscidlərdəki minbərlərin şəbəkələri, ibadət zalındakı sütunları da səkkizguşəlidir. Hətta Katex kəndinin yuxarısındakı bölgədə ən qədim məscidin (üzərindəki lövhəyə görə bu məscid XIV yüzillikdə tikilmişdir – M.A) içərisində şabalıd tirindən hazırlanmış ağac sütunlar da səkkiz tillidir.

XIX yüzilliyin əvvəllərindən başlanmış rus işğalı bölgədə inkişaf etməkdə olan islam memarlığına ciddi zərbə vurdu. Bu abidələrin çoxu vəhşicəsinə dağıdıldı.

Məlumdur ki, rus işğalına qarşı mübarizədə islam dini ideoloji silah, dini rəhbərlər və təriqət başçıları isə bu mübarizədə öncüllər olmuşlar. Odur ki, belə şəxslərlə bağlı olan evlər, digər binalar və xanəgahlar dağıdılmış, məscidlər viran edilmişdir. Çünki bu yerlər azadlıqsevər bölgə insanlarının inandığı və tapındığı, ibadət etdiyi və düşmənə qarşı mübarizə üçün toplaşıb səfərbər olduğu ocaqlar idi.

Qeyd etməliyik ki, bölgədəki İslam dövrü abidələri içərisində Balakən rayonunun Katex kəndində, Zaqatalanın Car kəndində və Qax rayonunun Almalı kəndində XVIII-XIX yüzilliklərdə tikilmiş xanəgah və mədrəsələr nə qədər eyni dövrün islam memarlıq abidələri ilə oxşarlıq təşkil etsə də, tamamilə fərqli və özünəməxsus üslubda tikilmişdir. Katex kəndində indi də xarabalıqları qalmaqda olan və nəqşbəndilərə aid edilən mədrəsə- məscid bölgənin ictimai-siyasi həyatında çox böyük rol oynamışdır. Məlumdur ki, çarizmin Qafqazdakı işğalçılıq siyasətinə qarşı mübarizədə Nəqşbəndilik və ondan yaranmış Müridizmin bir çox lider və müridləri məhz bu məktəblərin yetirmələri olmuş, həmin ideyanı buradan yaymışlar. İşğalçılara qarşı mübarizədə ideoloji silah rolu oynayan Nəqşbəndlik və Müridizm Şimali Qafqaza və Dağıstana Azərbaycandan – məhz tədqiq edilən bölgədən yayılmışdır. Təsadüfi deyil ki, Şeyx Şamilin ruslara qarşı apardığı azadlıq hərəkatına ən ciddi dəstəyi bu bölgənin insanları vermişdir. Həmin dövrdə araşdırılan bölgədə və Dağıstanda inşa edilən gözətçi məntəqələri və qalaların oxşarlığı da bu amillə bağlıdır.

Bölgədə İslam dövrünün ən maraqlı abidələrindən biri Qax rayonunun Oncallı kəndindəki qədim Oğuz məzarlığında böyük Sufi şairi Yunis Əmrəyə və onun ustadı Hacı Tapdıq Əmrəyə aid qəbir abidələridir. Bu onu göstərir ki, İslam dini yayıldıqdan sonra Azərbaycanın şimal-qərb bölgəsi daim diqqət mərkəzində olmuş və böyük Sufi şairlərinin, təriqət Şeyxlərinin öz ideyalarını yaydığı məkanlardan olmuşdur.

IV fəslin **“Epiqrafik abidələr”** adlanan III yarımfəslində bölgədəki islam dövrü abidələri üzərində həkk edilmiş daş kitabələrdən bəhs edilir. Bir çox məscid və digər dini tikililərin, evlərin tikilmə tarixi məhz bu kitabələrin oxunması ilə öyrənilmişdir. Bunlara ən bariz nümunə olaraq Balakən Cümə məscidinin, Katexdə nəqşbəndilərə aid mədrəsə və məscidin kitabələrini misal göstərmək olar.

Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin ustalarının tərtib etdiyi kitabələrin mətnləri əsasən ərəb dilində yazılmışdır. Bu, ustaların ərəb dilini yaxşı bildiyini sübut edir. Gözəl süls-nəsx xətti, qabartma üsulla həkk olunmuş kitabələrin əksəriyyəti nəbati ornament motivləri ilə birgə tərtib olunmuşdur. Kitabələri haşiyələyən ornamental motivlərin sxemini bir-birinə əks istiqamətdə dalğalanan qoşa xətlər təşkil edir. Xətlərin üzərində üçləçəkli

fiqur, islami naxışlar oturdulmuşdur. Naxışların mürəkkəb motivlərində iki və ya üçrəsmli fiqurlar üst-üstə düzülmüşdür. İnşaat kitabələrinin, epitafiyaların haşiyələrində çatmatağ formasında tamamlanan şaquli ox üzrə mürəkkəb sxemli nəbati motivlərlə və həndəsi ornamentlərlə həmahəng tərtib edilmiş bədii yazılı lövhələr Şimali Azərbaycanın şimal-qərb bölgəsində fəaliyyət göstərmiş bədii daşyonma sənəti məktəbinin ən nəfis, orijinal və dolğun nümunələridir. İlisu lövhələri bunların içərisində diqqəti daha çox cəlb edir.

Kitabələr memarlıq abidələrinin inşasına, bərpasına və təmir edilməsinə dair məlumat verməklə yanaşı, bir çox ictimai-iqtisadi, siyasi, inzibati məsələlərin aydılaşdırılmasında da tarixi mənbə kimi dəyərlidir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın nəticələrinə yekun vurulmuş, ümumiləşdirmələr aparılmışdır. Qeyd edilmişdir ki, tarixi abidələr burada yaşayan insanların yaratdığı və gələcək nəsillərə yadigar qoyacağı ən vacib milli-mənəvi dəyərlərdəndir.

Dissertasiyanın **"Əlavələr"** adlı hissəsində isə tarixi abidələrin bölgədə yerləşməsi xəritəsi, bu abidələrin hər birinin son dövrlərdə çəkilmiş foto şəkilləri verilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

**Monaqrafiyalar**


1. Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri. Bakı, 2013, "Turxan" nəşriyyatı, 228 s.
2. Haylarda yaşayan tariximiz. Bakı, 2013, Turxan nəşriyyatı, 106 s.
3. Balakən: uzaq və yaxın tarix. Bakı, 1995, "Sabah" nəşriyyatı, 40 s.
4. Balakən-Zaqatala bölgəsinin tarixi, etnoqrafiyası, Bakı, Oka-Ofset, 2001, 160 s.
5. Məbədlər diyarının tarixi, Bakı, Adiloğlu, 1999, 98 s.
6. Balakən-Zaqatala bölgəsinin tarixinə dair, Bakı, Oka-Ofset, 2007, 147 s.
7. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası, Oka-Ofset, 2009, 160 s.
8. Balakən Kortalasının saxsı-təknə (sarkofaq) qəbirləri". AMEA Fəlsəfə və Hüquq İnstitutunun Elmi məqalələr məcmuəsi, 30-cu buraxılış. Bakı, "Adiloğlu", 2002, s. 81-82, (Həmmüəllif- H.X.Ramazanlı).
9. Orta əsr Katex abidələri. Tarix və onun problemləri № 1, Bakı, "Adiloğlu",

2010, s. 224-228
10. Северо-Западный Азербайджан и Дагестан (историко-архитектурные памятники-схожие и отличительные черты)”. Актуальные проблемы истории Кавказа. Материалы международной конференции, посвященной 100-летию со дня рождения профессора Р.М.Магомедова (Махачкала, 14-15 апреля 2010 г.). Махачкала, 2010, ст. 341-342
11. Şimal-Qərbi Azərbaycanın tarixi abidələri və onların öyrənilməsinin əhəmiyyəti. Geostrategiya, № 05 (05), Bakı, iyul 2011, s. 30-33
12. Şimal-Qərbi Azərbaycanın qədim tarixi abidələri və “Zaqatalanın böyük möcüzəsi”. Geostrategiya, № 03 (09), Bakı, may-iyun 2012, s. 56-57
13. Balakən tarixində yeni səhifələr. Mədəni həyat, № 9, Bakı, 2012, s. 56
14. Şimal-Qərbi Azərbaycan: bölgənin tarixi toponimlərin dili ilə. Geostrategiya, № 03 (15), Bakı, may-iyun 2013, s. 35-39
15. Исторические памятники Северо-Западного Азербайджана. Кавказ и мир. Международный научный журнал. The Caucasus and the World. International Scientific Journal, № 19, Tbilisi, 2015, pg. 107-110
16. Şimal-Qərbi Azərbaycan: Tarixi abidələrdə və haylalarda yaşayan tariximiz. Geostrategiya, № 01 (25), Bakı, yanvar-fevral, 2015. s. 24-26

**A.A.Mammadli**

## MONUMENTS OF THE NORTH-WEST REGION OF AZERBAIJAN

### (Description and classification)

### SUMMARY

Owing to its geographical and strategic location and the rich natural resources Azerbaijan has historically been in the center of attention. In this regard, the North-West area of Azerbaijan is of particular importance, and numerous ancient and medieval monuments located here were the object of disputes. The main cause of these disputes was the fact that these historical monuments, especially temples, were not described and classified in the scientific literature. This dissertation is devoted to solving this issue.

In the thesis is investigated ancient and medieval historical monuments of the North-West region of Azerbaijan, given the classification of the monuments according to assignment and data.

Description of dozens of historical monuments in the region for the first time is presented to the scientific community.

The thesis consists of the "Introduction", 4 chapters, "Conclusion", the list of "References", "Appendix" and illustrations.

The "Introduction" presents the urgency of the theme, goals and objectives, the source base, practical and scientific value of the research, the aprobasion and structure of the dissertation.

Chapter I of the dissertation is titled as "North-West region of the Republic of Azerbaijan: a brief historical and geographical survey." This chapter provides a brief historical overview of the region, population and place names.

Chapter II of the dissertation is titled as "The classification of the monuments of defensive importance". In this chapter has been investigated the defensive installations: fortresses, towers, fortifications and barriers.

Chapter III of the dissertation is titled as "Pre-Islamic temples." In this chapter has been investigated monuments connected with the most ancient astral views and Christianity. These temples are evidence of that historical Azerbaijani Albania was located on this area.

In Chapter IV of the thesis titled as "The monuments of Islamic period" monuments built from the beginning of the spread of Islam up to the twentieth century (mosques, madrasas, sacred places – "pirs", the sanctuaries) are described and classified.

The "Conclusion" provides with the main results of the research.

In the "Appendix" are given the necessary enclosure and illustrations.

**А.А.Маммедли**

# ПАМЯТНИКИ СЕВЕРО-ЗАПАДНОЙ РЕГИОНА АЗЕРБАЙДЖАНА (ОПИСАНИЕ И КЛАССИФИКАЦИЯ)

## РЕЗЮМЕ

В силу своего географического, стратегического расположения и из-за богатых природных ресурсов Азербайджан исторически был в центре внимания. В связи с этим Северо-Западная зона Азербайджана имеет особенное значение, и расположенные здесь многочисленные древние и средневековые памятники являлись объектами споров. Основной причиной этих споров являлось то, что эти исторические памятники и, в особенности храмы, не были описаны и классифицированы в научной литературе. Данная диссертация посвящена решению этого вопроса.

В диссертации исследованы древние и средневековые историические памятники Северо-Западного региона Азербайджана, дана классификация памятников по назначению и по данным. Описание десятков исторических памятников этого региона впервые представлены научной общественности.

Диссертация состоит из введения, 4-х глав, заключения, списка использованной литературы, приложений, иллюстраций.

Во введении представлены актуальность темы, цель и задачи исследования, практическое и научное значение, данной работы источниковая база исследования, апробация и структура диссертации.

I глава диссертации называется «Северо-Западный регион Азербайджанской Республики: краткий историко-географический обзор». В этой главе представлен краткий исторический обзор региона, населения и топонимов.

II глава диссертации называется «Классификация памятников оборонного значения». В этой главе исследованы оборонные сооружения: крепости, башни, укрепления и барьеры.

III глава диссертации называется «Доисламские храмы». В этой главе исследованы памятники, связанные с самыми древними астральными воззрениями и христианством. Эти храмы свидетельствуют о том, что историческая Азербайджанская Албания была расположена в данной территории.

В IV главе диссертации - «Памятники Исламского периода» описаны и классифицированы памятники, построенные с начала распространения ислама до XX века (мечети, медресе, священные места - «пиры» святилища).

В заключении представлены основные итоги исследования.

В дополнительной части диссертации представлены необходимые приложения, иллюстрации.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

# ПАМЯТНИКИ СЕВЕРО-ЗАПАДНОЙ РЕГИОНА АЗЕРБАЙДЖАНА (ОПИСАНИЕ И КЛАССИФИКАЦИЯ)

**Специальность 5503.02 – Отечественная История**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ— 2016**